DİVAN-İ ƏRĞƏVAN (1)

DAR (1)

uca bir dar başında kimsəsiz görcək qadın qaşı ,
ona quraan kimi qoşmuşdu şarki gözlərim yaşı .

ölüm sanki su içməkdir qalım sevdasına hər an ,
bağımsız varına varmaqdan ötrü pay verir başı .

okulsuz hey çapırdım dörd-nala uzmanı kim aşqın ,
dərin öyrəndiyim anlar başa düşdüm mənəm naşı .

dedim quşda uça bilməz yaralı bir qanad ilə ,
dedi susma zəfərdir bu durum , öyrənci sırdaşı .

ömür kərdim maraqsızdır deyə seyrə çıxan azdır ,
odur olmuş mənə bir Em tükənməz ağrı xaşxaşı .

məni özləm yemi qılmış qara gün ellərə yazğım ,
öc almaq çün doğubdur o , kütəlməz bu qarandaşı .

M . Ərğəvan

Em--dərman

DIVAN-I ƏRĞƏVAN

can gilə (2)

son kədər rəssamı kən , sanki ürək anına o ,
qan ilə naxşa çəkir varlığımın canına o .

gecələr bayquşu mən bilməmişəm hansı nədən ?
qara geymiş gəlin olmuş səhərin danına o .

qoparır qəlbimi kökdən dəlisov an nə bilim !?
bir əsir tək aparır ağrıdağın xanına o .

yol boyu mən durumu göydə samanlar kimidə ,
gör necə tans qurur yerdə ölüm çanına o .

içim ağrı dolu yapraqlara bənzər əsərək ,
bilirəm bir kölədir boş mənə-mən şanına o .

Ərğəvanın dözümü can gilə örnək olaraq ,
sonda baş əydi bilə , mən kimi xağanına o .

M . Ərğəvan

DIVAN-İ ƏRĞƏVAN

SU(3)

bu gecə nazlı ipəksu qonuşur ayparasu ,
son uğursuzluq üçün yanma deyir var çarasu .

aylara illərə yalqız düşər öksuz qədərin ,
xan çobansız de görüm çalğı çalır mi sarasu ?

qara özləmlərə yemlik deyə kimisiz kimə hey ,
daşlanır can qarışıq ağ ciyərindən qarasu .

çoxda ah çəkmə ahından yanar oldum başa düş ,
sənə bənzər ötən il tək gedər olmuş dara su .

acı inciklərə göz yaşını qat incimə iç ,
son kərə son sevi olusun sonu kindaşlara su .

qınama , mən dəlini gözləri ağlar kor olub ,
görəməzm , sən gələcək yoldan axır gur hara su ?

M . Ərğəvan

DIVAN-I ƏRĞƏVAN

DÜŞ (4)

ağ göyərçin çini kimidir , qaraşın quşlar içində?
mənəm o dimdik ucu , min çilə qurmuşlar içində .

de görüm harda , nədən , doğru sözü söyləri mən tək?
ucaq üstündə tava , gündə qovurmuşlar içində .

çatısızlar ilə bir sürdüm ömür kim nə bilir mən ,
yalavac xan gedirəm boynunu burmuşlar içində .

söz doğur tanrını yerlərdə , susur tanrı sözündən ,

utanır çünki özündən , uca durmuşlar içində .

Yeni-seydən söz açır , keçmişi çin-çin çini gözlər ,
ulu soy türküsünü öncə yoğurmuşlar içində .

heç inanmırdı düşüm , düş gecə , dişlan dişi düşgün ,
Ərğəvanı doğacaq , doğru doğurmuşlar içində .

M . Ərğəvan

DIVAN-I ƏRĞƏVAN

DƏLİ (5)

yeni yığvanı yığır inci görüşlər hey-hey ,
qılacaqlar mi yarın hızlı yürüşlər hey-hey?

eləbil qurqunu qurmuş dəli qoçlar dəlisov ,
küçələrdə qoşacaq qanlı döyüşlər hey-hey .

quruşumlar çanı tansilə tanıq oldi , dedi:-- təndir ovcunda alay çəkdi gümüşlər hey-hey .

yetişibdir yemişi göy gedişin , göy görüşü ,
buna örnək ulu şamanda ki düşlər hey-hey .

quşqusuzdur dediyim , kim başa düşmür ona hoy ,
sərgilərdə sezilir çün görünüşlər hey-hey .

Ərğəvan bəlli gəlişmiş ana göstərdi açıq ,
ələnir hər yerə hey , bax çürümüşlər hey-hey .

M . Ərğəvan

DİVAN-İ ƏRĞƏVAN

İMGƏ(6)

mən sevil çağına özləm bilə bubbu kimi bu ,
bir qoşuq qoşmaq üçün gəldi qoşuqçu kimi çu .

onu sevda yenə çoşdurdu çırıl-çıl gecə oy ,
bir içimlik arayır çün balığım su kimi su .

sarmaşıq bənzər oluşmuşluğu güzgü sezir an ,
canı sarqın rumanın yazdı lələk , qu kimi qu .

hələ dan qızlğı kaldır , o gedərgin yol ucu ,
ulayır can evinə bir qara duyğu kimi u .

kimsə bilməz bu durum dərdini gızlın çəkirəm ,
boyası qan kimi ah göylərə yahu kimi hu .

Ərğəvanın sözü , son öz kimidir alqılayınki ,
dedi sevda qanıdır , qan bu qanı , yu kimi yu .

M . Ərğəvan

DIVAN-I  ƏRĞƏVAN(7)

DOĞUŞ(7)

körpə bir quş düşünür , göz ücü hər gün , dən üçün .
bir savaşdır bu gediş , doğrusu çin-çin , çən üçün .

necə bilsin birisi , quş səsi gün doğdu səhər ?
dən , ürün elçisidir , buğdası bol xərmən üçün .

acılar basqısına qarşı yürü , durma kəsin ,
bu sınaqdır törənir hər kimə , sən , kimsən üçün ..

ey üzün görmədiyim , sevgili gəl məndən eşit !
yol boyu min tuzağın ağzı açıqdır , sən üçün .

biz görüşdük gecə roya evini , seyir edərək ,
ayrılıqlar sona varsında günü , birdən üçün .

Ərğəvan gözləyişi , bir sonucun , son nədəni ,
çün yeni can doğacaq , ünlü səadət mən üçün .

M . Ərğəvan

DIVAN-I ƏRĞƏVAN

ÖZ (8)

necə doğdum gecə sözdən , neçə bir söz açıram söz!?
Atasağın kimi Emsiz kora , gün-göz açıram göz .

sanmayın tanrı olub , hər zadı özdən biçir üssüm .
öz özü , mən özü , bir-bir özə , min öz açıram öz .

söz özün , güc yemi olmuş ,  dözü , zorgin içir anlar ,
demə zor andı bugün , sor-yanıtın , döz açıram döz .

döz uzun , çöz qısacıq , şahmata bənzər görüşümlə ,
indi gəl gör necə bir , kiş mat ilə çöz açıram çöz .

quru kirbit kimiyəm , çöb ucu əsruklu gügürdüm ,
bax çəlik soy kötüyün , iç üzünə köz açıram köz .

çaşma çaşdırma özü , biz özüdür , mən geri dönməz ,
Ərğəvanın öz üzünə dür yoğuru öz açıram öz .

M.Ərğəvan
Atasağın döktür
üss ağıl

DIVAN-I ƏRĞƏVAN

SÜRGÜN(9)

Təbrizdə yalın yal olaraq elgünə düşdüm .
bir aşqın ucundan inanılmaz günə düşdüm .

vurğunluq ilə yer nədi göylərdə uçurdum ,
aldım quruşum çırpınaraq son tünə düşdüm ,

getmiş deyə şəklində ki ağlar gözü öpdüm ,
öpdüm öpüşün yandırıcı bürgünə düşdüm ,

qırdım səni ey qır çıçəyim dön məni sez gör ,
sənsiz necə alçaqlıq ilə pis dünə düşdüm .

hər bir görüşün bir mənidi anlamadım ki ,
keçmişdə səninlə yücə bir ön ünə düşdüm ,

döndün geri yalnızca yalınca bilə bildin ,
aşqın mənə pay düşmədi çün sürgünə düşdüm .

M . Ərğəvan
elgün--yabancı
tün--gecə
ün--şan , şöhrət

DIVAN-İ ƏRĞƏVAN

SEVİŞ(10)

durğun baxışı qoş gecə qoş , oy mənə , oy ver .
oy ver gün ipəksu hulunu , soy mənə , soy ver .

aç körpə umur göz ilə qızğın mən , içir , sən ,
iç-iç dəlim olsun kimi , sən , doy ,  mənə , doy ver .

yas yığvası bənzər deyil an , sev-sevil ancaq ,
əsruk düşü sal döşlər ara , toy mənə , toy ver .

ön imgəni aç , yerdə kürək , göydə bacaqlar ,
çılğınca saril get-gəl ilə hoy mənə , hoy ver .

gəl indi geyimsiz önə düş , incə yavaş çön ,
əsnək yeri əsdirdə açıq qoy mənə , qoy ver .

soy içgisidir , içdiyim içgi gərəyim bil ,
öz varına dursun yiyə qurd soy mənə , soy ver .

M . Ərğəvan

DİVAN-İ ƏRĞƏVAN

QARA GÜN(11)

qara boy yollara yol yolçusu an , ay içirəm .
bir saat il dönərək , saniyədən ay içirəm .

nədənin sorma , yanıt gizlidə gizlincə qalıb ,
çünki sevda pinarından hələlik vay içirəm .

indi incik ürəyim körpədi cansız anamın ,
məməsindən gecələr qanlı südü pay içirəm .

ayrılıq yelpiyini yel çana bənzər çalaraq ,
qaldırımlarda beşiksiz deyə lay-lay içirəm .

iti sayğacdı gözüm gözlüyün altında eşit !
deyirəm , bax neçə udqun necəsin , say içirəm .

çaxır içmiş bağırır , bir çoxu ağzında bibər ,
məndə onlardan ıraq bal ilə göy çay içirəm .

M.Ərğəvan

DİVAN-İ ƏRĞƏVAN(12)

AŞQ(12)

leylak dalına quş kimi qon qal gəlirəm oy ,
can bir öpücük göndərirəm al gəlirəm oy .

biz sevgisi sancaq gedir ənginlərə , durma ,
mən könlünü saz et yerə dön , çal gəlirəm oy .

sevdasına yorğun günü vurğunçu susur kən ,
çılğınca əsir ellərə səs sal gəlirəm oy ,

sən bir dişi qısraq bilə dörd-nalda çapırcı ,
dırnaqlarını hey öpəcək nal gəlirəm oy .

qışraqdı , dur ey sevgili gözləm geri dönmə ,
qızğınca qızındırmaq üçün şal gəlirəm oy .

mənsiz bilirəm , şor gölüdür gözlərin aşqım ,
gecdirsə bağışla ki sənə , bal gəlirəm oy .

M . Ərğəvan

DIVAN-I ƏRĞƏVAN(13)

BAN(13)

mən didərgin gözü gildir kiməsiz ban çəkirəm .
can çalır özləminə gur səs ilə çan çəkirəm .

üzüquylu yerə düşmüş çerikəm parça-param ,
köynəyim qanlı kəfən ölməz üçün can çəkirəm .

tabut üstü yenə pay düşmədi küsgün deyiləm ,
deyə can-can bağırıb can gilə baycan çəkirəm .

bu kimi doğrunu duymaq duyarın , söz duyamaz ,
işdə bir gerçək çün mən özü qurban çəkirəm .

arğışından geri qalmışlığı son kəz kim atıb ,
qaçıram ön , ona heybəm dolusu an çəkirəm .

dəli doğdurdu zaman mən dəlini , sanma dəli ,
dəli qanlı kimi qan , sevgilimə qan çəkirəm .

M.Ərğəvan

DİVAN-İ ƏRĞƏVAN (14)

SƏS(14)

doğru doğmuş bir görüşdən yüksəlir çağ türküsü .
qorxusuz dil açdı , dilsizlərdə , susmağ türküsü .

yurd boyu ərsoy gəlinlər döş çəkir dağ doğ ilə ,
indi haykır Songulum gun doğdu qundağ türküsü .

hardasan ey boz dişi , gəl dinlə hər yoldan ötən ,
zırna ağzında qoşur türkə qırılmağ türküsü .

durma aç qollar boyun bas bağrına yavrum eşit ,
könlümün çırpıntısından bir sarılmağ türküsü .

bu mənim son istəyim , qoş can , qoşul sən sonda bir ,
qurtuluşçum ol çılə , çilsiz bir olmağ türküsü .

gəl dişim , gəl ərkəyim aslanca qaldır göylərə ,
dalğa dərsin bir daha bozqurdlu bayrağ nəməsi .

M.Ərğəvan

DIVAN-I ƏRĞƏVAN(15)

ZƏNCİR(15)

qanlı baş şəklin hörüb kim daşlara bildir günü ?
gözlərindən san keçir qan , sanki qançildir günü .

qan buğu rəssam olub ön yetməz üstü göylərə ,
ağ buludan qan yağır yerdən-yerə gildir günü .

olmuşam bir seyrici bu sərgidən yorğunca mən ,
dinc alım istər ama , solğun qərənfildir günü .

püsgürür ahım alov tək qıymasu can köz içir ,
sevgi küsmüş can Kilisasında İncildir günü .

düşmədi mən düşdaşı , aydın gedişlər varına ,
bu nədən olmuş ona , sonsuz qara gil-dir  günü .

gərgin ömrüm al çaxırsız vermir anlam Ərğəvan !
dörd qanad qısraqların , zəncirdə çün , çildir günü .

M.Ərğəvan

DIVAN-I ƏRĞƏVAN(16)

YÜRÜŞ(16)

dəniz ovcunda iməklər iti uyğundaki qısraq .
sıçra qılmış qıyığa an döşü duyğundaki qısraq .

quruşumlar ötəməz çap ucu Altay təpələrdə ,
sanki bir yolbəyidir , bəy yolu uğrundaki qısraq .

haydı sevgim yürü səggiz nala , qır çək , yükü qıl öc ,
gözləyir çün öcünü kin dolu soyğundaki qısraq .

hızla uç , durma yasaq , doğra önü , kəsmişi kəsgin ,
kəsmədin bil kəsəcək , çaynağı quzğundaki qısraq .

gəbə topraqlara can-can ödəmişlər kimi haykır ,
sinə gərsin yenidən duşmana durğundaki qısraq .

geri dönməz inadından dəniz atlar gəmi uyğun ,
qır qasırğa qıracaq çin-çini vurğundaki qısraq .

M.Ərğəvan

DIVAN-I ƏRĞƏVAN(17)

TORUN(17)

get önü , dönmə dünü , bil bu sorum sor səsidir be .
dün soru , ön yanıtı , incə yorum yor səsidir be .

bu durum könlümü almış deyə vermir geri çünki ,
can sevir parkını sarmışcı korum kor səsidir be .

edəcək tans alanı gözlərim altın sarı qan bax !
sez , gözün çırtını qan , qanda qorum qor səsidir be .

sevdiyim nəsnə bəzəkdir üz üçün , öfgə deyil bu ,
ki qurur yoğrusu , doğrusu morum mor səsidir be .

aşq ilə sevda qısır qəlbimi qır-qır çalır anlar ,
sancısı sus qıracaq , sanki zorum zor səsidir be .

qısırım boylu düşüb , indi eşit , sən gözü aydın ,
mən deyil , çaşma bu səs , sonki torum tor səsidir be .

M.Ərğəvan

DIVAN-I ƏRĞƏVAN (18)

NEY(18)

bir ipəksu neyə döndüm , səsi ildən ilə neysu .
qutsu xuryat düşü türküm deyə dildən dilə neysu .

düşdüyüm yerdə içir gövdə dodaqsız hey əzincə ,
çünki sevda yem olunmuş , yeni çildən çilə neysu .

bu kədər çırpıdı , çırpır məni , çırpıntılarımdan ,
damcı-damcı calanır yanğısı lildən lilə neysu .

acılar yelkəni fır gündəki ılqıt məməsindən ,
gözyaşımdır eləbil , hər gecə mildən milə neysu .

utanır mən , mən özündən çaxır udqun gedər an sez ,
boylanır ah , gilə gözlər gilə , gildən gilə neysu .

incə inciklərə qundaqlanıram , körpə cocuq kim ,
çəkirəm çün kiməsiz hər necə zildən zilə neysu ?

M.Ərğəvan

DIVAN-I ƏRĞƏVAN (19)

ARA(19)

bir bitimsiz pinarın var ucudu göz izi düz .
göz qıpır , coşqu qıpır sar , ucudu göz izi düz .

demə çol şordu , cığır duzdu gedir yolçu , sanır,
içəyim aşqına qaynar ucudu göz izi düz .

arayır su deyə kövşən qurugin gövdə yaxır ,
necə bilsin gecə-gün qar ucudu göz izi düz .

o qoşur , yelqovan olmuş kimi yanğınca görür ,
kiprik alti su deyil , par ucudu göz izi düz .

quş olub aşqı uçub , ovçu amansızca deyir ,
yazğın ovlandı düşün , sar ucudu göz izi düz .

qucanır diz , sevi əngində zaman , öz gerisiz ,
öndə sevda , ama son , dar ucudu göz izi düz .

M.Ərğəvan

DIVAN-I ƏRĞƏVAN(20)

DEV(20)

qara zeytın bir ayaq dingı çaxır udmuş ikən ,
açır əsruk çətirin , düş dışı sus-sus yenidən .

öz içi , söz dəyişir yerdə açıq sözçü deyir ,
böylə susqunluğu kim , min kim üçün hördü görən ?

söz çəkir , göy gilə göyqurşağı , gizlin gecə çün ,
boğacaq sus devini , öncə gəzir aysu nədən .

yol boyu çən ilə zeytın yağı buzgin eləbil ,
ayaq altında tilan , qaydıracaq yolçunu çən .

arayır söz , yoğurun seyir edərək , öz xəmirin ,
gördü hər bir düş ucu , busqu tini , sanki bu dən .

indi buldum dedi , mən akvariyom içrə kimi ,
dev deyil , bəlkə mənəm-mən qənim olmuş , bizə mən .

M.ƏRĞƏVAN